## Rəsmi sənədlər

### Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2026-cı ildə böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illiyi tamam olur.

Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünəməxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Əsrinin mədəni həyatı ilə heyrətamiz dərəcədə sıx bağlı olan Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 yanvar 2026-cı il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 may tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

**Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin**
**S İ Y A H I S I**

**1. Əsərləri dövlət varidatı elan edilən müəlliflər:**
1.1. Qətran Təbrizi;
1.2. Məhsəti Gəncəvi;
1.3. **Əfzələddin Xaqani;**
1.4. Nizami Gəncəvi;
1.5. Qazi Bürhanəddin;
1.6. İmadəddin Nəsimi;
1.7. Aşıq Qurbani;
1.8. Şah İsmayıl Xətai;
1.9. Məhəmməd Füzuli;
1.10. Aşıq Abbas Tufarqanlı;
1.11. Molla Pənah Vaqif;
1.12. Molla Vəli Vidadi;
1.13. Qasım bəy Zakir;
1.14. Mirzə Fətəli Axundzadə;
1.15. Həsən bəy Zərdabi;
1.16. Seyid Əzim Şirvani;
1.17. Xurşidbanu Natəvan;
1.18. Mirzə Ələkbər Sabir;
1.19. Nəcəf bəy Vəzirov;
1.20. Aşıq Ələsgər;
1.21. Cəlil Məmmədquluzadə;
1.22. Əbdürrəhim bəy Haqverdiyev;
1.23. Cəfər Cabbarlı;
1.24. Əhməd Cavad;
1.25. Mikayıl Müşfiq;
1.26. Əhməd bəy Ağayev;
1.27. Əli bəy Hüseynzadə;
1.28. Nəriman Nərimanov;
1.29. Məmməd Səid Ordubadi;

1.30. Hüseyn Cavid;
1.31. Əzim Əzimzadə;
1.32. Yusif Vəzir Çəmənzəminli;
1.33. Üzeyir Hacıbəyov;
1.34. Səməd Vurğun;
1.35. Əliağa Vahid.

**2. Dövlət varidatı elan edilən filmlər:**
2.1. "Sevil " (1929-cu ildə çəkilmişdir);
2.2. "Lətif "( 1930-cu ildə çəkilmişdir) ;
2.3. "İsmət"(1934-cü ildə çəkilmişdir);
2.4. "Mavi dənizin sahilində" 1935-ci ildə çəkilmişdir) ;
2.5. "Almaz"(1936-cı ildə çəkilmişdir) ;
2.6. "Bakılılar"(1938-ci ildə çəkilmişdir) ;
2.7. "Kəndlilər "(1939-cu ildə çəkilmişdir) ;
2.8. "Səbuhi"(1941-ci ildə çəkilmişdir)
2.9. "Bir ailə"(1943-cü ildə çəkilmişdir) ;
2.10. "Arşın mal alan" (1945-ci ildə çəkilmişdir) ;
2.11. "Görüş" (1955-ci ildə çəkilmişdir).